## DOXSAN İLİN MÜBARƏK

*(“Xudafərin”in 90 illiyinə)*

Düşmənlərin gözlərinə,
Batan oxdur Xudafərin.
Hər bir zaman hədəfinə,
Çatan oxdur Xüdafərin.

Neçə illik köçkünlüyün,
Əzabıyla yanyanadı.
Dərdimizin ağırlığı,
Dözümünü çox sınadı.

Hər səhifədə şəhid adı,
Vətən adı dilə gəldi.
Hər səhifəsi gözümüzün,
Yaşın silə-silə gəldi.

Cəbrayıllı günlər üçün,
Harayladı hər an bizi.
Hər bir zaman uca tutdu,
Vətən adlı sevgimizi.

Hər cümləsi dayaq oldu,
Torpağını itirənə.
Ürəyində dayanmadan,
Dərdi-qəmi bitirənə.

Anaların göz yaşını,
Silmək üçün hey tələsdi.
Bacardıqca ağrıların,
Əzabların yolun kəsdi.

Üzümüzü qoy güldürsün,
Bundan sonra xoş xəbərin.
Doxsan ilin mübarəkdir,
Xüdafərin,Xüdafərin.

Yaşa-yaşa hər bir zaman,
Dərdin,qəmin duy vətənin.
Neçə -neçə yarasına,
Məlhəmini qoy vətənin.

Xudafərin adın yaşat,
Coşqu ilə,gur həvəslə.
Təmsil eylə Cəbrayılı,
Əbədilik,uca səslə.

## YOZA BİLMƏDİ

*(Şair Vaqif Mehdinin xatirəsinə)*

Bir şair ayrıldı bu gün dünyadan,
Baş qoyub əbədi torpağa getdi.
Bir şair ayrıldı bu gün dünyadan,
Ölüm bildiyini yenə də etdi.

Nə qədər söz getdi qəlbində onun,
Çox sayda sözünü yaza bilmədi.
Vətənə aparan yuxularını,
Çox heyf xeyirə yoza bilmədi.

Getdi arzuları qaldı gözündə,
Qaldı şeirləri özündən sonra.
Söz tapa bilmirəm deməyə dostlar,
İnanın ayrılıq sözündən sonra.

Bir şair ayrıldı bu gün dünyadan,
Ölüm yollarını bağlayacaqdır.
Onu bu dünyada özündən sonra,
Qalan şeirləri ağlayacaqdır.

## QAYIDAN DEYİL

*Əminəvəsi Rəqsanənin*
*vaxtsız ölümünə*

Arxanca boylana-boylana qaldıq,
Getdin ömürlərin itdiyi yerə.
Yolunu həyatda yaman tez saldın,
Soyuq məzarların bitdiyi yerə.

Kimsənin yetməyir əli əlinə,
Əllər o əllərə toxuna bilmir.
Qəlbindən keçənlər qalır gizlində
Daha gözlərindən oxuna bilmir.

Körpə balaları oxşamır əlin,
Səsin yuxulardan oyandırmayır.
Hara istəsələr qaçıb gedirlər,
Səsin yollarından dayandırmayır.

Olümün ölümdür, zülümün zülüm,
İnanmaq olmayır yaşanan günə.
Hərdən düşünürəm xoş gəlişinlə,
Gəlib qapımızı açarsan yenə.

Qayıdan deyilsən bilirəm geri,
Təsəlli heç nəyi dəyişən deyil.
Qara torpaqlara yem olan əlin,
Bizimlə bir daha görüşən deyil.

***2022***

## QALACAQ

*(Şair Vaqif Mehdinin xatirəsinə)*

Səndən sonra bu dünyada,
Qalsa ancaq,söz qalacaq.
Alovlara dönmək üçün,
Ruhun boyda köz qalacaq.

Yalan imiş, dünya yalan,
Sübut etdi bu gün olan.
Gedişini yola salan,
Neçə -neçə göz qalacaq.

Dərd calandı, yenə dərdə,
Görüşmərik Şair birdə.
Malik deyir səndən geridə,
Əvəzsiz bir iz qalacaq.



***Malik ƏHMƏDOĞLU***

**Kredo.- 2022- ci il.- 24 avqust.- S. 13.**